# Senior Lecturer Rəşad Məhərrəmov

## Личная информация

**Рабочий телефон:** +994 124407985
**Электронная почта:** rashad_maharramov@unec.edu.az
**Web:** https://avesis.unec.edu.az/rashad_maharramov

**Идентификаторы международных исследователей**
ScholarID: 9kQTTQ0AAAAJ
ORCID: 0000-0001-6655-2439
Publons / Web Of Science ResearcherID: GLQ-7958-2022

## Биография

Məhərrəmov Rəşad Rəhim oğlu- 1984-cü ildə Bakı şəhərində ziyalı ailəsində anadan olub. İbtidai sinfə Nizami r-nu 70 saylı pilot məktəb-liseyində getmiş, 2001-ci ildə orta məktəbi bitirmişdir. Elə həmin ildə, Bakı Dövlət Universitetinin Tarix fakultəsi, Regionşünaslıq (Qafqaz ölkələri üzrə) ixtisası üzrə əvvəlcə bakalavr, daha sonra həmin ixtisas üzrə təhsilini magistratura pilləsində davam etdirmişdir. 2007-ci ildə hər iki təhsilini fərqlənmə diplomu ilə bitiribdir.

2007-2008 ci ildə həqiqi hərbi xidmətdə olub.

Əmək fəaliyyətinə 2002-ci ildən başlayıb. 2009-cu ildən Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında çalışıb. Burada çalışdığı müddətdə əvvəlcə "Beynəlxalq əlaqələr" şöbəsində mütəxəssis, daha sonra "İnzibati idarəetmə" fakultəsində baş mütəxəssis olaraq fəaliyyət göstərib. 2014 cü ildə Akademiyanın "Politologiya və siyasi idarəetmə" kafedrasının doktorantı olmuş, 2017 ci ildə 5904.01 –"Siyasi institutlar və sistemlər" ixtisası üzrə fəlsəfə doktorluq proqramını başa vurmuş, 2019 cu ildə siyasi elmlər üzrə fəlsəfə doktoru elmi dərəcəsi almışdır.
Dövlət İdarəçilik Akademiyasında çalışdığı müddət ərzində, Dövlət idarəçiliyi sahəsində Almaniya – GİZ Təşkilatının və Sinqapur Li Kuan Yu Milli Universitetinin Azərbaycanda təşkil etdiyi beynəlxalq layihələrin iştirakçısı olubdur.

O, 2014 cü ildən Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) çalışır. Əvvəlcə "Tədris Metodiki Mərkəz"də böyük mütəxəssis, 2019 cu ildə UNEC Biznes Məktəbi "İqtisadiyyat və idarəetmə" kafedrasında tam ştat müəllim və proqram-ixtisas rəhbəri olmuşdur. 2021 ci ildən UNEC in "Karyera planlaşdırılması və inkişafı" kafedrasının müdiri vəzifəsində çalışır.
Hazırda həmin kafedranın baş müəllimidir.

Tədris fəaliyyətinə 2013-cü ildən başlamış, əvvəlcə Qərbi Kaspi Universitetində saathesabı, Dövlət İdarəçilik Akademiyasında 0.5 ştat əvəzçiliklə müəllim olaraq çalışmışdır. Tədris etdiyi fənnlər: Müasir siyasi sistemlər, Müasir diplomatiya, Liderlik və təşkilati davranış, Strategiya, təşkilat, innovasiya, Yumşaq bacarıqlar, Karyera planlaması, İctimaiyyətlə əlaqələr və s. olmuşdur.

14 dən çox elmi məqalənin, 1 dərslik, 3 fənn proqramının müəllifidir. SCOPUS bazasında indekslənən 1 elmi məqaləsi var.

Bununla yanaşı R.R.Məhərrəmov, Təhsildə Keyfiyyət Təminatı Agentliyi PHŞ-da Ali təhsil müəssisələrinin akkreditasiya olunması üzrə ekspert komissiyanın üzvüdür.

UNEC Ömürboyu Təhsil Mərkəzi tərəfindən İsrail və Azərbaycanda baş tutan "Təlimçilərin təlimi – Soft Skills" adlı layihədə iştirak etmiş və bu sahə üzrə kvalifikasiyalı təlimçi sertifikatının sahibidir.

Təlimçi olaraq, UNEC də 500 nəfər inzibati və professor-müəllim heyətinə "Soft skills" üzrə təlimlərin verilməsində iştirak etmişdir.

O, həm də ASAN İnnovasiyalar Mərkəzinin və UNEC-lə eləcə də digər nüfuzlu Universitetlərlə tərəfdaşlıq çərçivəsində reallaşdırılan "Gələcək üçün Bacarıqlar" layihəsinin UNEC üzrə kordinatoru və mentorudur.

Bu layihə müddətində iştirakçı komandalara bir sıra mövzular üzrə təlimlər vermiş və mentorluq etmişdir.

Onun mentorluq etdiyi 2 layihə: "Hydroponics" və "MySa" "Gələcək üçün bacarıqlar" layihəsinin 8/1 final mərhələsinə qədər yüksəlmişdir.

O, həm də İRİA-nın (İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi) təşəbbüsü və "PAŞA Holdinq"in sponsorluğu ilə həyata keçirilən "Viveka Mentorluq Proqramı"nın iştirakçısı olmuş və proqramı uğurla başa vurmuşdur.

O, Azərbaycan Dövlət İqtisad Universitetinin "Karyera planlaşdırılması və inkişafı" kafedrasının müdiri, Siyasi elmlər üzrə fəlsəfə doktoru və kafedranın baş müəllimidir.

Türk, rus və ingilis dillərini bilir.

Ailəlidir, üç övladı var.

## Области исследований

Behavioural Sciences

## Академические звания / должности

Senior Lecturer, Azerbaijan State University of Economics (UNEC), Ümumi Fənlərin Tədrisinin Təşkili Departamenti, Karyera Planlaşdırılması Və İnkişafı Kafedrası, 2014 - Continues

## Преподаваемы предметы

Rashad Maharramov, Undergraduate, 2024 - 2025

## Метрики